

**Şəlalə Şəfəq**

## Bəlkə

Yenə darıxdırır sənsizlik yaman,
Çarəsiz qalıram təklik sıxanda.
Gecəmin qoynuna sığınıb hicran,.
Təsəlli də vermir mən darıxanda.

Köçmüşəm dünyadan vallah elə bil,
Bürüyür ruhumu həsrətin an-an.
Nə özüm, nə sözüm, nə gözüm deyil,
Bütün varlığımdır sənsiz darıxan.

Qəlbimdən illərin qəmi boylanır,
Gözlərimdən axan yaş yox, qəhərdi.
Sənsiz keçən günlər ilə calanır,
Həsrətin sevgimin yaşı qədərdir.

Günbəgün saçımda çoxalır dənin,
Hər biri özündə kədər yaşadır.
Gözümdən yuxu tək tökülür qəmin,
Kirpiklər yükündən ağırlaşıbdır.

Elə aparmısan özümü məndən,
Ələyib üstümə dumanı, çəni.
Qoparıb ruhumu sənsizliyimdən,
Özümə bəs necə qaytarım məni?

Saatlar, həftələr, aylar ötdükcə,
Sənə çatmağa yol gəzirəm kəsə.
Bəlkə qovuşaram, bəlkə bir gecə,
Əqrəblər saatda geri işləsə...

## Kaş

Bir gözələ vurulmuşam,
Ağlımdadır səhər, axşam.
Yolunda azıb qalmışam,
İzin küçəmizdən sala.

Həsrətin bağrını dələ,
Vüsalından tutam şələ.
Gecələr yuxuma gələ,
Zülmətimə nurun sala.

Qurban ala gözlərinə,
Çarə olam dərdlərinə.
Ona gələn gəlsin mənə,
Qadasını özüm alam.

Boyu tən gələ boyuma,
Huyu dən gələ huyuma.
Bircə söykənə soluma,
Qolumu boynuna salam.

Uzaq düşməyə gözümdən,
Bal tökülə hər sözündən.
Əriyib itəm nazından,
Ömürlük yanımda qala.

Çəkəm hər işvə, nazını,
Bal tək udam əzabını.
Alsın eşqin savabını,
Günahları məndə qala.

Ürək açsın arzu, dilək,
Sevgimizin qədrin bilək.
İki könlü bir eyləyək,
Samanlıqlar seyran ola.

Küsüb- barışsaq da hərdən,
Ayrılmayaq ölənəcən.
Əzrayılım gələnəcən,
Ruhum sənlə qidalana.

Ədalət.- 2020.- 19 sentyabr. S. 14.